# MÖCÜZƏLİ NAFTALAN BEYNƏLXALQ TURİZM MƏRKƏZİNƏ ÇEVRİLİR

**Naftalan Şəhər İcra Hakimiyyətinin nümayəndələrinin, hüquq-mühafizə orqanlarının kənd və şəhər nümayəndələrinin, bələdiyyə sədrlərinin, müəssisə rəhbərlərinin və şəhər ziyalılarının iştirakı ilə 2017-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.**



**Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov** respublikada gedən davamlı inkişafdan, şəhərdə aparılan abadlıq-quruculuq işlərindən və yeni layihələrin icrasından ətraflı söhbət açaraq qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında möhtərəm Prezident dərin məzmunlu giriş və yekun nitqləri söyləmiş, ötən dövrdə respublikamızda görülmüş işləri, əldə olunmuş uğurları və qarşıda duran vəzifələri geniş təhlil etmişdir. Ölkəmizdə geniş vüsət alan sosial-iqtisadi inkişaf, aparılan quruculuq və abadlıq işləri kurort şəhəri olan Naftalanda da yüksək templə davam edir. Bu, özünü həm 2017-ci ilin birinci yarısının statistik göstəricilərində, eyni zamanda, gündəlik həyatda da göstərir.

2017-ci ilin birinci yarısında Naftalanda ümumi məhsul buraxılışı keçən ilin müvafiq dövrü ilə müqayisədə 74,1 faiz artaraq 10 mln. 300 min manat, iqtisadiyyatın aparıcı sahəsi olan sənaye məhsulu xidmətlərinin həcmi 6,4 faiz artaraq 1 mln. 57 min manat təşkil etmişdir. Əhaliyə 150,4 min manatlıq nəqliyyat xidməti göstərilmiş, əhalinin həyat səviyyəsini xarakterizə edən əsas göstəricilərdən biri olan ödənişli xidmətlərin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 30,7 faiz artaraq 6 mln. 168 min manat olmuşdur. Pərakəndə əmtəə dövriyyəsinin həcmi 9 mln. 456 min manat, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 274,2 manat, hüquqi və fiziki şəxslərə göstərilən informasiya və rabitə xidməti 18,5 faiz artaraq 103,1 min manat təşkil etmişdir. Ümumi məhsul buraxılışının həcmində kənd təsərrüfatı məhsulunun payı 794 min manat, tikinti-quraşdırma işləri isə 5,8 dəfə artaraq 5 mln. 104 min manat təşkil etmişdir.

Əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi diqqət mərkəzində saxlanılmış, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər şöbəsi tərəfindən 530 ailəyə ünvanlı dövlət sosial yardım və sosial müavinət ödənilmişdir. Mərkəzin sosial xidmət işçiləri tərəfindən 48 nəfər tənha ahıl və əlil vətəndaşa evlərində müvafiq xidmətlər göstərilmişdir. 15 nəfər əlilə istirahət və müalicə üçün sanatoriya-kurort yollayışı verilmişdir.

Altı ay ərzində 36 nəfərə müvafiq kateqoriyalar üzrə pensiya təyinatı aparılmış, ümumilikdə şəhər üzrə 1520 nəfər pensiyaçıya xidmət göstərilmişdir. Sığorta edənlərdən daxilolma 422 min manat təşkil etmiş, o cümlədən sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən 37,7 min manat vəsait daxil olmuşdur. Proqnoz tapşırıqları 85 faiz icra olunmuşdur.

2017-ci ilin yanvar-fevral aylarında nazirlik və komitələr tərəfindən 176 yeni iş yeri açılmış və şəhər əhalisi bu işlərə cəlb olunmuşdur.

Məlumdur ki, qeyri-neft sektorunun mühüm inkişaf sahəsi olan turizm şəhər iqtisadiyyatının başlıca sahəsidir. Dövlətimizin başçısı turizm sahəsinin inkişafı üçün ardıcıl və düşünülmüş tədbirlər həyata keçirir. Bu, biz naftalanlıları daha böyük uğurlara ruhlandırır. Bu gün Naftalan şəhəri həm müalicəvi nefti ilə xəstələrin müalicəsində daha effektiv nəticələr əldə olunmasına, həm də istirahət üçün burada yaradılan müasir turizm infrastrukturuna görə turistlər üçün daha cəlbedici kurort mərkəzinə çevrilmişdir. Burada yaradılan müasir turizm infrastrukturu nəinki isti yay fəslində, hətta soyuq qış aylarında da turistlərin diqqətini cəlb edir. Hazırda Naftalanda fəaliyyət göstərən turizm obyektlərində gün ərzində 2000-dən çox qonaq qarşılamaq, onlara yüksək səviyyədə xidmət göstərmək mümkündür. 2017-ci ilin birinci yarımilində şəhərə şəfa tapmaq və istirahət etmək məqsədilə üz tutan yerli və xarici turistlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 17 faiz çox olmuşdur. Belə ki, 2017-ci ilin altı ayında Naftalanın turizm obyektlərində 9.5 min turist qeydə alınıb ki, bunun da 4012 nəfəri 50-ə yaxın xarici ölkədən gələn turistlər olmuşdur. “TurStat” analitik agentliyinə istinadən bir məlumatı da qeyd edim ki, Naftalan şəhəri postsovet məkanında rusiyalılar arasında ən populyar müalicəvi kurort sayılıb.

Eyni zamanda, dövlət başçısının xarici ölkələrə ixrac missiyalarının təşkili, xarici bazarların araşdırılması və bu sahə üzrə müvafiq tapşırıqlarının icrası ilə bağlı Naftalan neftindən məhsullar hazırlayan “Qətransız Naftalan məlhəmi” MMC-nin istehsal etdiyi məhsulların “Made in Azerbaijan” brendi altında xarici bazarlara ixracı şəhərimizin iqtisadiyyatının inkişafına və Naftalan neftinin tanıdılmasına əlavə təkan verəcəkdir.

Bu gün qürurla demək olar ki, Naftalanda aparılan hər bir yenidənqurma və təmir işləri şəhəri gündən-günə gözəlləşdirib, sakinlərin rahat şəraitini təmin edib, bu məkanın xarici turistlər arasında şöhrətini daha da artırıb. Prezident cənab İlham Əliyevin diqqət və qayğısı, verdiyi tapşırıqların vaxtında və düzgün icra edilməsi Naftalanı beynəlxalq turizm mərkəzinə çevirib. Qarşıda duran vəzifələr bizə inamla onu deməyə əsas verir ki, 2017-ci il yeni nailiyyətlərlə yadda qalacaqdır.

Çıxışının sonunda şəhər rəhbəri, göstərilən sonsuz diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə dərin minnətdarlığını ifadə edərək, tam əminliklə bildirdi ki, Naftalan əhalisi həmişə olduğu kimi, bundan sonra da müstəqil dövlətimizin gələcəyi naminə aparılan uğurlu siyasətin həyata keçirilməsində öndə gedəcəklər.

Sonda şəhərin sosial-iqtisadi inkişafı ilə əlaqədar 2017-ci ilin birinci yarısında görülmüş işlər və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi ətrafında şəhər maliyyə şöbəsinin rəisi Saleh Tağıyev və Naftalan sanatoriya-kurort birliyinin baş həkimi Hatəm Qocayev çıxış etdilər.

**Z.XƏLİLOV,**
**“Respublika”.**